**Vüsalə Məhərrəmova**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**E-mail: maharramvusala@gmail.com**

## Azərbaycanda mədəni irsin qorunması məsələsi

**Xülasə:** Bu gün Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olan mədəni inkişaf siyasəti, milli-mənəvi dəyərlərin təbliği, tarixi mədəni zənginliyin qorunması xüsusi yer tutur. Qarabağın mədəni irsini qoruyub saxlamaq, erməni işğalından əziyyət çəkən bir xalqın mənəvi borcudur. Bu istiqamətdə həm daxildə, həm də xaricdə bir sıra mühüm işlər görülsə də, bu proses daim davam etdirilməli, göstərilən fəaliyyətlər daha da təkmilləşdirilməlidir.

**Açar sözlər:** mədəni irs, Qız qalası, İçərişəhər Dövlət Tarixi-Memarlıq Qoruğu, Şirvanşahlar Saray Kompleksi.

Hər bir dövlətin sərvəti onun tarixi, incəsənəti və mədəniyyəti ilə ölçülür. Tarixi tikililər, abidələr, qəsrlər, qalalar və sair sərvətli obyektlərin hər biri dövlətin nəzarəti altındadır. Mədəni irsin dünya mədəniyyətinin formalaşmasında, yaranmasında müstəsna rolu olmuşdur. Biz həmişə müstəqil dövlət olaraq, zəngin tariximiz, mədəniyyətimiz, incəsənətimiz ilə öyünmüşük. Müsəlman Şərq ölkələri arasında ilk opera, ilk qadın bəstəkar, ilk balet, məhz bizim xalqın adı ilə bağlıdır. Buna görə hər bir azərbaycanlı kimi biz də tariximizi öyrənməli və onu təbliğ etməyi şərəfli bir vəzifə hesab edərək mədəni irsimizin keşiyində dayanmalıyıq.

Mədəni irsin araşdırılmasında heç şübhəsiz ki, tarixi-memarlıq abidələri önəmli yer tutur və onların mühafizəsi dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri hesab edilir. Həsən bəy Zərdabi 1901-ci ildə "Türk nəğmələri" əsərində belə yazırdı: "Bir xalq ki, öz tarixini, adət-ənənələrini unudursa, bu həmin xalqın belinin sındırılmasıdır". Ona görə də hər bir xalq öz tarixini, abidələrinin memarlıq xüsusiyyətlərini dəqiq, düzgün bilməyə məcburdur. Məhz bu baxımdan tarixi-memarlıq abidələri hər bir xalqın çoxəsirlik tarixinin öyrənilməsində, gələcək nəsillərə çatdırılmasında mühüm funksiyalar və vəzifələr yerinə yetirir.

Tarixdə elə xalqlar olmuşdur ki, onların tarixi-memarlıq abidələri vandalizm aktlarına məruz qalaraq amansızcasına məhv edilmişdir. Bir çox xalqlar səlibçi yürüşləri nəticəsində öz tarixi varlığını itirmişdir. Lakin bu mədəni irslər tarix səhifəsindən silinsə də, onlar haqqındakı yazılar, təqvimlər

bütövlükdə mədəni irs şəklində toplanaraq bugünkü tarixə gəlib çatmışdır. Bu baxımdan tarixi-memarlıq abidələrinin tədqiqi olduqca vacib bir məsələdir. Dövlətlər tərəfindən qəbul edilmiş qanunlar, digər hüquqi aktlar, sənədlər memarlıq abidlərinin mühafizəsində, eyni zamanda tədqiqində olduqca böyük əhəmiyyət kəsb edir.

Ölkəmiz zəngin, qədim tarixi memarlıq abidələri ilə məşhurdur. Alban dövrünə aid çox sayda abidələr qorunaraq bu günədək gəlib çatmışdır. Bakının və dünyanın unikal abidəsi olan Qız qalası, Şirvanşahlar sarayı kompleksi, Mərdəkan, Nardaran və Ramana qalaları, Bərdə türbəsi, Cəbrayıl rayonundakı Xudafərin körpüləri, Pirsaatçay Xanəgahı, Şəki xanlarının sarayı, Naxçıvandakı Yusif ibn Küseyir, Möminə Xatın türbələri, Qazax rayonundakı Sınıq körpü və başqaları Azərbaycan memarlığının şah əsərlərindəndir.

Odlar yurdu Azərbaycan musiqi diyarı kimi məşhurdur. Qobustanda tədqiq edilmiş qayaüstü təsvirlər arasında "yallı" oynayan insanların təsviri, "Qavaldaş" Azərbaycanın qədim dövrlərdən musiqiyə olan marağından xəbər verir.

Ermənistanın ölkəmizə etdiyi talançılıq siyasəti nəticəsində mədəni irsimizə ciddi ziyan dəymiş, dəyərli mədəniyyət abidələrimiz vəhşicəsinə dağıdılmışdır. Həmçinin, talan edilmiş zəngin ekspozisiyaları olan muzeylərimizdə müxtəlif məktəblərin xalça nümünələri, tarixi və mədəniyyətlə bağlı qiymətli əşyalar, rəssamlıq və mədəniyyət əsərləri yandırılmış, məhv edilmişdir.

2014-cü ildə Nazirlər Kabineti yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılmışdır. Ölkə başçısının Fərmanı ilə yaranan qurumun fəaliyyətə başlaması abidələrimizin qorunmasında yeni mərhələ oldu. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu və Qala Dövlət Tarix-Etnoqrafik qoruğundan başqa respublikamızda olan bütün daşınmaz tarixi-memarlıq abidələri qurum tərəfindən mühafizə olunur. Qurumun əsas məqsədi: obyektlərin bərpası, konservasiyası və digər mühüm işləri icra etməkdir.

Müasir mərhələdə dünya mədəni irsinin qorunması kulturoloji əhəmiyyət kəsb edir. Mədəni irsin öyrənilməsi ilə bağlı bir çox kulturoloji nəzəriyyələr mövcuddur. Bu nəzəriyyələr mədəni irsin öyrənilməsi və araşdırılmasında biz-gənc nəslin qarşısında məsuliyyət və cavabdehlik hissi qoyur. Tariximizin müxtəlif inkişaf mərhələlərində mədəni irslə bağlı elmi tədqiqatlar aparılmışdır. Dünya mədəni irsinin bir parçası olan Azərbaycan mədəni irsinin qorunması da dövlətin prioritet sahələrindən biri kimi qəbul edilir.

Ölkəmiz mədəni dünyaya inteqrasiya yolu ilə inamla irəliləyir və beynəlxalq mədəniyyət təşkilatlarının kulturoloji layihələrinə qoşulur. Bu mənada bəşəriyyətin kulturoloji irsinin öyrənilməsi, mühafizəsi və təbliği

məsələləri mədəni dünyanı getdikcə daha çox düşündürür. Artıq mədəni irsin qorunub saxlanması və inkişaf etdirilməsi müstəqil Azərbaycanın mədəniyyət siyasətinin əsas vəzifələrindən birinə çevrilmişdir. Bu vəzifələrin icrası yolunda Azərbaycan xalqı azad və suveren dövlət quraraq mədəni-iqtisadi islahatlar aparmaqla, öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratrik ölkələrin təcrübəsindən istifadə edir.

Mədəni irsimizin qorunması müasir dövrdə ən aktual məsələlərdən biridir. Azərbaycan dövlətinin bu sahədə gördüyü işlər danılmazdır. 1996-cı ildən Azərbaycan ilə YUNESKO arasında bağlanmış əməkdaşlıq memorandumunun imzalanması, həm tarixi-memarlıq, həm də mədəni irsimizin qorunması baxımından olduqca əhəmiyyətli addımdır. Azərbaycanda və dünya ölkələrinin əksəriyyətində mədəni irsin mühafizəsi xüsusi əhəmiyyət kəsb edir.

Tarixi-memarlıq abidələri zamanın sınaqlarına sinə gərərək, əksəriyyəti bu günə qədər salamat qalmışdır. Hər bir ölkənin qədimliyi, mədəniyyətinin zənginliyi onun maddi-mədəniyyət nümünələrinin çoxluğu ilə ölçülür. Azərbaycan tarixən qədim abidələrinin zənginliyi ilə fərqlənir. Əksər abidələrin yaşı və dövrü minillikləri əhatə edir. Respublikamızda ümumilikdə 6000-dən çox tarixi, arxeoloji abidələr vardır ki, əksəriyyəti bərpa edilmiş, bəzilərinin vəziyyəti isə qəzalıdır. Xalqımızın milli sərvətini, milli dəyərini əks etdirən tarixi-memarlıq abidələrinin mühafizəsi daim diqqət obyektində olmalıdır.

YUNESKO və Azərbaycan arasındakı əməkdaşlıq nəticəsində bir sıra maddi və mənəvi dəyərlərimiz mühafizə olunur. Maddi mədəniyyətimizin ən unikal abidələrindən olan Qız Qalası YUNESKO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edilərək, nəinki ölkəmiz, həm də dünya ölkələri tərəfindən unikal abidə kimi mühafizə edilir. Bütün bunlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mədəniyyətə göstərdiyi yüksək ehtiram və qayğıdan irəli gəlir. Azərbaycan Respublikasının vitse-prezidenti Mehriban Əliyevanın YUNESKO ilə əməkdaşlığı sayəsində, atdığı uğurlu addımın nəticəsində bu gün Azərbaycanın maddi və qeyri-maddi mədəni irsi dünya ölkələri arasında tanınır. Son on il ərzində arxeoloji təqdiqatlar üçün büdcədən milyon manatlarla vəsait ayrılmışdır ki, bu da xüsusi əhəmiyyət kəsb edir.

Dövlət tərəfindən mühafizə edilməsinə rəğmən, abidələrin bəziləri dağıdılır, korlanır. Ürəkaçan vəziyyət olmasa da, bütün bunlar əhalinin böyük əksəriyyətinin məlumatsızlığı, ictimai maariflənmədən uzaq olmasından irəli gəlir. İctimai birliklərin mədəni irsin qorunması məqsədilə göstərdikləri fəallıq, gördüyü işlər də danılmazdır. Onlar daim keçmişin yadigarı olan mədəni irsimizin qorunmasında, mühafizəsində yerli əhali arasında kütləvi təbliğat, maarifləndirmə işləri görsələr gələcək nəsillər üçün layiqli addım olar.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Beynəlxalq İnkişaf Assosiasiyası ilə imzalanmış “Mədəni irsin qorunmasına yardım”

haqqında sazişə əsasən, "Qız Qalası", "Şirvanşahlar Saray Kompleksi", "Möminə Xatun türbəsi", "Qarabağlar türbəsi", "Şəki Xanlarının Sarayı" kimi dəyərli abidələrimizdə bərpa və yenidənqurma işləri aparılmışdır. Nəticədə 2003-cü ildə "Qız Qalası", "Şirvanşahlar Saray Kompleksi" də daxil olmaqla İçərişəhər Dövlət Tarixi-Memarlıq Qoruğu YUNESKO-nun Ümümdünya irsi siyahısına daxil edilmişdir.

YUNESKO tərəfindən 2013-cü ildə Qız qalası və Şirvanşahlar Saray Kompleksinin birlikdə gücləndirilmiş mühafizə statusunun alınması respublikamızda imzalanmış əməkdaşlığın yeni dövrü olmuşdur. Bu status və əməkdaşlığa görə hər hansı silahlı münaqişə zamanı mədəni obyektlər qorunub saxlanılır və gücləndirilmiş mühafizə ilə təmin olunur.

Bakı şəhərinin tarixi mərkəzi olan İçərişəhər memarlıq kompleksi 2000-ci ilin dekabr ayında Ümumdünya irs siyahısına daxil edilmişdir. Lakin, Azərbaycanda baş vermiş zəlzələ nəticəsində İçərişəhər ərazisində yerləşən memarlıq abidələrinə dəymiş zərər və bununla bağlı bir sıra problemlərə görə 4 iyul 2003-cü il tarixində Ümumdünya İrs Komitəsinin 27-ci sessiyasında İçərişəhər kompleksi YUNESKO-nun təhlükədə olan ümumdünya irs siyahısına daxil edilmişdir. İçərişəhərin YUNESKO-nun gücləndirlmiş mühafizə rejimli abidələrinin siyahısına daxil edilməsi, Azərbaycanın zəngin tarixi-memarlıq irsinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinə işarədir.

Orta əsrlərin şah əsəri, Şirvan hakimlərinin igamətgahı olan Şirvanşahlar Saray Kompleksi bu günkü tarixə qədər öz tarixi-memarlıq xüsusiyyətlərini qoruyub saxlamaqdadır. Şamaxıda baş verən güclü zəlzələ nəticəsində paytaxt Bakıya köçürülən zaman şəhərin ən yüksək ərazisində Şirvanşahlar Saray Kompleksi ucadıldı.

Azərbaycan bəşəriyyətdə ilk ibtidai insanların yarandığı, formalaşdığı bölgələr sırasına aid edilir. Tədqiqatlar sübüt etmişdir ki, insanların bu ərazidə yaşamasın səbəbi, təbii şəraitin, iqlimin əlverişli olması idi. Həmçinin, Azərbaycan ən qədim mədəniyyət ocaqlarından biridir. Azərbaycanda Qobustan, Naxçıvan, Kəlbəcər kimi ən qədim yaşayış məskənləri vardır. Bu bölgələrdən tapılmış qayaüstü rəsmlər qədim insanların ilk əl işi hesab olunur. Qobustanın qaya rəsmləri mezolit dövrünün ən qədim sənət əsərləri hesab olunur. Alimlərin fikilərinə görə bu qayaüstü rəsmlərin ən qədimi eramızdan əvvəl VII-VI əsrlərə aiddir. Qobustan qayalarında insan fiqurları, müxtəlif heyvan təsvirləri, rəqs səhnələri həkk olunmuşdur. Bütün bunlar Azərbaycanın ən qədim yaşayış məskəni olmasını sübuta yetirir. Qədim təsvirlərdən əlavə, Böyükdaş dağının ətəyində latınca yazılmış sözlər aşkar edilmişdir. Yazı bizim eradan əvvəl (I əsr) Bakı ərazisində Roma qoşunlarının olmasından bəhs edir. Xüsusilə, qeyd etmək lazımdır ki, Qobustan üzərindəki yazıların, təsvirlərin araşdırılmasında İshaq Cəfərzadənin rolu böyük olmuşdur. Bu gün qayaüstü

rəsm əsərlərini, arxeoloji abidələr kompleksini mühafizə etmək üçün "Qobustan dövlət tarixi-bədii qoruğ"u yaradılmışdır. Dövlət tərəfindən xüsusi olaraq mühafizə olunan qoruq minlərlə turistin əsas səyahət etdikləri obyektlər sırasına aiddir. Bu səbəbdən qoruğun qədimliyi dünyanın diqqət mərkəzindədir. 2007-ci ildə "Qobustan dövlət tarixi-bədii qoruğ"unun YUNESKO-nun Ümumdünya mədəni irs siyahısına daxil edilməsi üçün qərar qəbul edilir və onun qorunması, mühafizəsi artıq bəşəri xarakter daşıyır.

Azərbaycanın maddi-mədəni irsinin qorunması bu gün dövlətin mədəniyyət sahəsində prioritet istiqamətlərindəndir. Ölkə prezidentinin mədəni-iqtisadi islahatlar aparması mədəniyyət abidələrinin mühafizəsini müasir tələblərə uyğun şəkildə təbliğ edir, qoruyur. Bunun nəticəsidir ki, abidələrimizin mühafizəsi, bərpa və konservasiyası yolunda dünya mədəni təşkilatları ilə müqavilələr, sazişlər imzalanır. "Ümumdünya mədəni və təbii irsin mühafizəsi" (Paris, 1972-ci il 16 noyabr), "Arxeoloji irsin mühafizəsi" (Avropa konvensiyası, 1992-ci il 16 yanvar), "Tarix və mədəniyyət abidələrinin qorunması" (Azərbaycan, 1998-ci il 16 aprel), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli 74 nömrəli qərarı ilə "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" və s. kimi əhəmiyyətli işlər görülmüşdür.

## Ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi ineternet səhifəsi-www.president.az
2. Azərbaycan arxeologiyasının uğurları və problemləri // "Azərbaycan" qəzeti, 28- 29 sentyabr 2012. s.. 8, 7.
3. Azərbaycan Turizm coğrafiyası-C.Məmmədov və H.Soltanovun birgə redaktəsi ilə, Bakı 2002.
4. Arxeologiya // Azərbaycan Milli Ensiklopediyası "Azərbaycan". səh. 652-656. Bakı, 2007.
5. Dünya muzeyləri və tarixi memarlıq abidələri, Sabir Əmirxanov və İlqar Hüseynovun birgə redaktəsi ilə, Bakı 2008.
6. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu, (1 sentyabr 2001-ci ilədək olan vəziyyətə görə, Bakı 2001).
7. Mədəniyyət siyasəti və mənəvi dəyərlər, Namiq Abbasov , Bakı 2003.
8. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. Namiq Abbasov, Bakı-2008.

9. Milli mədəniyyətin, mənəvi dəyərlərin, mədəni irsin qorunması, mühafizəsi və təbliği. Sahib Vəliyev. Mədəniyyət dünyası.XIX buraxılış.2010.
10. Qloballaşma dövründə milli-mədəni dəyərlərin qorunması. Sevdagül Əliyeva. Bakı-2011.
11. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1998-ci il.
12. 2010-cu ildə aparılmış arxeoloji kəşfiyyat işləri və bəzi təsadüfi tapıntılar haqqında // "Azərbaycanda arxeoloji tədqiqatlar". Bakı-2011. s.264-270.
13. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili-İlqar Hüseynov, Nigar Əfəndiyeva, Bakı 2008.

## Охрана культурного наследия в Азербайджане
## Резюме

Политика культурного развития,является одним из основных направлений государственной политики Азербайджана.Особое место в воспитании граждан Азербайджанкой Республики занимает пропаганда национальных и духовных ценностей,защита исторического и культурного богатства.Сохранять культурное наследие Карабаха-это моральный долг людей,которые пострадали от армянской оккупации.

**Ключевые слова:** культурное наследие, Девичья Башня, Государственный историко-архитектурный заповедник Ичери Шехер, Дворцовый комплекс Ширваншахов.

## Protection of cultural heritage in Azerbaijan
## Summary

Today, the policy of cultural development, which is one of the main directions of the state policy of the Republic of Azerbaijan, the promotion of national and spiritual values, the protection of historical and cultural richness have a special place in the education of citizens. It is the moral duty of a people suffering from the Armenian occupation to preserve the cultural heritage of Karabakh. Although a number of important works have been done in this direction both at home and abroad, this process must be continued and the activities provided must be further improved.

**Key wods:** cultural heritage, Maiden Tower, State Historical and Architectural Reserve Icheri Sheher, Shirvanshahs Palace Complex